EDF SBIIYF

Economic Research Center

*Mətbuat üçün açıqlama*

**Şəki şəhəri** **18 avqust 2013-cü il**

# Sahibkarlığın inkişafına və Bazar İqtisadiyyatına Yardım Fondunun İqtisadi Tədqiqatlar Mərkəzi ilə birgə Şəkidə həyata keçirdiyi seminar barədə mətbuat üçün acıqlama

Sahibkarlığın inkişafına və Bazar İqtisadiyyatına Yardım Fondunun İqtisadi Tədqiqatlar Mərkəzi ilə tərəfdaşlıq şəraitində Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirdiyi "İctimai vəsaitlərinin idarəolunmasına effektiv nəzarət sisteminin yaradılması" mövzusunda layihə çərçivəsində 18 avqust 2013-cü il tarixdə Şəkidə növbəti seminar keçirib. 15-dən çox yerli vətəndaş cəmiyyətinin və kütləvi informasiya vasitələrinin təmsilçilərinin iştirakı ilə keçirilən seminar "İctimai maliyyənin idarəedilməsi və ictimai iştirakçılıq" mövzusuna həsr olunub. Seminarda giriş sözü ilə çıxış edən layihənin əlaqələndiricisi Sahibkarlığın İnkişafına və Bazar İqtisadiyyatına Yardım Fondunun prezidenti Sabit Bağırov layihənin məqsədlərindən və seminarın qarşısında duran vəzifələrdən danışıb. O qeyd edib ki, ictimai vəsaitlərin idarəolunması sahəsində effektiv nəzarət sistemini vətəndaş cəmiyyətinin və medianın iştirakı təmin olunmadan həyata keçirmək mümkün deyil. Digər ölkələrin təcrübəsindən nümunələr təqdim edən natiq bu sahədəki nailiyyətlərin əldə olunmasında mövcud olan çətinliklərdən bəhs edib. Yerli səviyyədə vətəndaş cəmiyyətinin fəaliyyətinin əhəmiyyətinin xüsusi qeyd edən Sabit Bağırov qarşıda duran vəzifələrin həlli səviyyəsinin həm də vətəndaşların bu barədə məlumatlılığın və eyni zamanda informasiyaya çıxışın səviyyəsi ilə izah edib.

Bundan sonra "İctimai maliyyə institutları, büdcə prosesi və bu prosesdə ictimai iştirakçılıq imkanları" mövzusunda təqdimatla çıxış edən layihənin eksperti, İqtisadi Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü Qubad İbadoğlu ilk növbədə seminar iştirakçılarına ictimai maliyyənin idarəolunmasına məsul olan dövlət orqanları və onların funksiyaları barədə məlumat verib. O təqimat zamanı dövlət maliyyəsinin mahiyyəti, dövlət maliyyənsiin idarəolunması, büdcənin formalaşdırılması və onun icrasına nəzarət prosesində ictimai iştirakçılıq formaları və əməkdaşlıq imkanları barədə geniş izahatlar verib. Sonra iştirakçılar reginal səviyyədə ictimai maliyyə institutları ilə vətəndaş cəmiyyəti arasında dialoğun təşkili imkanlarından və bu sahədə qarşıalaşdıqları çətinliklərdən bəhs ediblər. Bu zaman ən ciddi çətinliklərin regionda büdcə xərcləmələri ilə bağlı məlumatlara çıxış olduğu qeyd olunub. Bunu nəzərə alaraq regionla bağlı büdcə məlumatlarının mərkəzi səviyyədə toplanması və regionda bu təlim iştirakçıları ilə bölüşdürülməsi qərara alınıb.